# İlyas Əfəndiyevin anım günü



Unudulmaz İlyas Əfəndiyev ədəbiyyatımıza (eyni zamanda mədəniyyət tariximizə) mənsub olduğu (və çox qədim) xalqın etnik yaddaşından, kökündən gəldi. Onun yaradıcılığı ilk növbədə, millətin özü olaraq qalmasına, özünə qayıdışına (bu kontekstdə, güclü olmasına) xidmət işidi. Azadlıq mücadiləmizin zəfərində, müstəqillik xoşbəxtliyimizdə İlyas Əfəndiyev düşüncəsinin, vətəndaş-yazıçı missiyasının özünəməxsus, əlahiddə yeri, haqqı var.

Bu səbəbdən böyük sənətkarın zəngin ədəbi irsi həmişə xalqımızın diqqət mərkəzində olub. Əbədiyaşar ruhu dərin qədirbilənlik hissilə yad edilib.

İlyas Əfəndiyevin anım günü təkcə oktyabrın 3-ü günüylə yox, yaşadığı böyük idealların, arzularının var oluşuyla, Zəfərli günlərimizin sevinc, qürur, bəxtiyarlıq anlarıyla hesablanır.

Həmişə belə olub.

Belə xatırlanıb... Gələcək zamanlarda da belə olacaq...